BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2010

# ƏDƏBİYYATŞÜNASLIQ

## RƏSUL RZANIN "VƏFA" PYESİ

*RƏSUL RZA – 100*

**Y.M.SEYİDOV**
***Bakı Dövlət Universiteti***
***seyidov@yahoo.com***

*Məqalə böyük Azərbaycan şairi Rəsul Rzanın 100 illiyinə həsr edilir. R.Rza Böyük Vətən müharibəsi dövründə "Vəfa" adlı pyes yazmışdır. Pyesin mövzusu da bu dövrdə baş verən bir epizoda aiddir. Məqalədə bu pyesdən bəhs olunur.*

1941-ci ildə "Böyük Vətən müharibəsi" deyilən müharibə başlayanda Azərbaycan yazıçıları da o zaman Sovet İttifaqı mənasında işlənən Vətənin müdafiəsinə qalxdılar. Silah götürüb cəbhəyə də getdilər, cəbhə qəzetləri də çıxartdılar, arxada qalıb müharibə mövzusunda bədii əsərlər də yazdılar. Əllərindən nə gəldi, onu da etdilər. Şair şeir yazdı, nasir hekayə yazdı, jurnalist oçerk yazdı. Heç kəs bu mübarizədən kənarda qalmadı. Dramaturq olmayan, o vaxta qədər səhnə əsəri yazmayan şairlər və nasirlər arasında bu sahədə (dram əsəri) qələmini sınayanlar da oldu. Bunlardan biri də görkəmli Azərbaycan şairi, gözəl şeirlər və poemalar müəllifi Rəsul Rza idi.

1943-cü ildə "Vəfa" adlı pyes yazdı. Həm də şeirlə yox, nəsrlə yazdı. Çox yüksək bədii dildə, belə demək olarsa, poetik dildə yazdı. Bu mənada bir-iki nümunə gətirmək istəyirəm: 1) "Ayrılıq qüvvətli bir küləkdir ki, zəif alovları söndürür, gur ocaqları daha şiddətlə yandırır". 2) "Belə aylı gecələrdə mən kaman çalardım. Onunla baş-başa verib bu nəğməni oxuyardıq, bizim gənclik nəğməmizi. Dəniz də üstü gümüş pullu nəhəng bir balıq kimi, pəncərəmizin qabağında yavaş-yavaş nəfəs alardı". 3) "Ümid qaranlıq gecələrin dərin səmalarına bənzəyir, dostum, diqqətlə baxan, onun guşəsində, sönük də olsa, bir ulduz tapır. Ancaq bu ulduz uzaq, soyuq və işıqsız olursa, təsəllidən çox qəlb ağrısı gətirir".

İlk baxışda iki cəhət diqqəti cəlb edir. Birinci cəhət əsərin quruluşudur. "Vəfa" adının altında oxuyuruq: "5 pərdəli, 10 şəkilli dram". Bu mənada diqqəti cəlb edir ki, pyes yazmaq təcrübəsi olmayan şair birdən-birə bu həcmdə – "5 pərdə, 10 şəkildə" çətin quruluşlu səhnə əsəri yazır. İkinci cəhət – obrazların çoxluğudur. Burada "iştirak edənlər" adı ilə 28 obrazın adı verilmişdir. Ümumən, dram əsərlərindən danışanda onlarda personajların çoxluğunu müəllifin ustalığı kimi qeyd edirlər. R.Rzanın «Vəfa» pyesində üç obrazdan başqa, qalan 25 obrazın kimliyi haqqında məlumat verilir. Maraqlıdır ki, bu obrazların, demək olar ki, heç biri passiv deyil, hamısı hərəkətdədir, hamısının replikası var, hadisələrin gedişində hamısı bu və ya başqa

şəkildə iştirak edir. Burada inam, dostluq, sədaqət, məhəbbət də var: paxıllıq, dönüklük, satqınlıq, ara qarışdırmaq da.

Vəfa əsərin qəhrəmanıdır, əsərin adı da bununla əlaqədardır. O, prokurordur. Cəbhəyə gedən əri Bahadırı çox sevir. Onlar söz qoymuşlar ki, heç bir hadisə bu məhəbbətə kölgə sala bilməz. Bununla belə, konfliktlər də baş verir. Cəbhədən qatarla keçən və bir qədər vağzalda dayanan Bahadır Vəfaya məktub göndərir ki, onunla görüşsün. Bahadır qatar yola düşənə qədər Vəfanı gözləyir, Vəfa gəlmir. Bahadır belə düşünür ki, Vəfa daha onu sevmir və gəlmək istəməyibdir. Səbəbini də bunda görür ki, Vəfanı sınamaq üçün məktubda yazmışdı ki, şikəst olubdur. Qatar gedəndən sonra Vəfa əlində gül dəstəsi vağzalda görünür və Bahadırı axtarır. Məlum olur ki, xüsusi adamlar var ki, onların bu görüşünə mane olmaq üçün məktubu bilə-bilə gecikdirmişlər, qatar gedəndən sonra Vəfaya vermişlər. Bundan Vəfa da rəncidə olur.

Bahadır Vəfanın rəfiqəsi İntizara məktub göndərir. İntizar məktubu Vəfaya verir ki, oxusun. Vəfa oxuyur: "İntizar, əsgərlərə hissə qapılmaq yaramaz. Ancaq qəlb ağrısının nə demək olduğunu, bəlkə, sən bilmirsən. Mən Vəfanı itirdim. Onunla bağlı olan bütün gənclik xatıratım da məhv oldu. Mən şikəst olduğum haqqında məktub yazıb onu sınamaq istədim. Bəlkə də, haqsızam. Ancaq bir yoldaşla mübahisə etmişdim. "Mən cəbhədən şikəst, qolsuz, ya ayaqsız qayıtsam da, o məni sevəcəkdir", - deyə lovğalandım. Gözlədim, gəlmədi, yerimi sənə də yazmıram, nə lazım... Mən yenidən cəbhəyə qayıtdım. Vəfaya bir söz demə! Qoy o öz həyatını istədiyi kimi qursun".

Hadisələrin gedişindən məlum olur ki, Vəfa ilə Bahadırın arasını vurmaqda başqa məqsəd var. Vəkil Minnətov Vəfaya eşq elan edir, Vəfa onun məktubuna sərt cavab verir, onu lağa qoyur. Minnətovla dostu Mirzə Pomoşnik arasında bu barədə xeyli söhbət gedir, necə eləsinlər ki, bu, baş tutsun. Bu adamlar – vəkil Minnətov, onun dostları Mirzə Pomoşnik və Vəzir heç bir cəhətdən yararlı adamlar deyillər, mənfi tiplərdir. Hətta ölkənin məğlubiyyətinə də biganədirlər. Minnətovun sevgilisi sayılan Vəsfiyyə də müsbət cəhətdən xarakterizə olunmur. Dramaturq onu belə təqdim edir: "Əri cəbhədə, özü gününü xoş keçirmək istəyən bir qadın".

Bu dördlüyün söhbəti heç bir cəhətdən oxucuya xoş gəlmir, bunlar arasında səmimiyyət də hiss olunmur. Muğan müəllim gəlir. Gəlir ki, Bahadırdan xəbər tutsun. Muğan müəllim bu cərgədən deyil. Həm müəllim, şəxsiyyət kimi, həm də xalqa, cəmiyyətə sədaqətinə görə müsbət adamdır. Xalqın malını talamaq, oğurluq edib gələcəyə ehtiyat saxlamaq haqqında söhbətlərə cavab olaraq deyir: "Yox, bu, namusdan deyil. Mən belə şey eləyə bilmərəm. Ehtiyat? Yox... Buna mənim vicdanım yol verməz. Xalq necə, mən də elə".

"Cəbhədə. Əli ilə Bahadır. Əli Bahadırı inandırmaq istəyir ki, Vəfa onu unutmamışdır, onun məhəbbətinə sadiqdir. Məktubun ona gec çatmasında "bir namərd əli var". Burada tamaşaçı İntizarı görür. O, Muğan müəllimin qızıdır. Könüllü olaraq cəbhəyə getmişdir. Xahiş etmişdir ki, onu Bahadırın hissəsinə "sanitar taqımına göndərsin"lər. İntizar Vəfa haqqında həqiqəti deyir. İntizar ona bir məktub verir. Bu məktub Vəfanın başqa məqsədlə yazdığı bir məktubun saxtalaşdırılmış mətnidir. İntizar təəccüb edir, əl-ayağa düşür; "yox, yox, bu ola bilməz. Yox, o, məktubun mənim yanımda yazmışdır, bu deyil... bu onun məktubu deyil, yox!" İntizar Bahadırı inandıra bilmir. Oxucu – tamaşaçı da qeyri-müəyyənlik qarşısında qalır. Söhbətin arası kəsilir. Çünki bir alman əsiri gətirilir. Əsiri gətirən Xasaydı.

Xasay da Bahadırın dostudur. Təzəcə cəbhəyə gəlibdir. Burada bir dialoqla tanış olmağı lazım bilirik:

Xasay. Əsirdi. Taqım komandanlığının əmrinə görə, sizin yanınıza gətirdim. Bıy, İntizar bacı da buradadır ki!

**İntizar.** Xasay!

***(Qucaqlaşırlar. Əli içəri girir).***

**Xasay.** Yoldaş kapitan, üç gündür, gəlmişəm, Sizi görə bilmirəm. Komandir tapşırıq verdi, bu zalım oğlunun bütün günü qarovulunu çəkmişəm. Vəfa bacının da məktubu məndə qalıb, gərək bağışlayasan.

Bahadır güman edir ki, bu da əvvəlki məktub kimidir, məktubu almır və deyir ki, "Yox, qoy dursun, birini aldım, bəsdir". Xasayın "Budur, özü də deyir ki...", - deyə başladığı sözünü kəsərək, əmr edir ki, Xasay kəşfiyyatdan danışsın. Sonra şiddətli vuruş başlanır. Xeyli ölən, yaralanan olur, yaralanmış Bahadır və Xasay əsir düşürlər.

Həmin vuruş səhnəsi o qədər mükəmməl təsvir edilmişdir ki, sanki, dramaturq özü də elə o vuruşların içində olubdur. Söhbət cəbhədən getmir. Oxucu bilir ki, Rəsul Rza cəbhədə olub, vuruş da görüb, ölüm-itim səhnələri də görübdür. Biz bir konkret vuruş səhnəsinin təfərrüatından danışırıq.

Pyesin beşinci şəkli bir faşist həbsxanası içində baş verən hadisələrin təsvirini verir. Bu səhnədə kimlər iştirak edir? Azərbaycanlı dustaqlar – Bahadır və Xasay. Qarovulçu (alman), Mayor (alman zabiti) və arada gəlib-gedən alman əsgərləri. Xasay ağır yaralıdır və su istəmək məqsədilə Qarovulçuya müraciət edir. Xasay atmacaları ilə onu dolayır. Bu söhbətdə almanın avamlığı, qələbəyə uşaqcasına inamı, bu halda bir az torpaq alacağı kimi xam xəyallarla yaşaması; Xasayın isə bu ağır vəziyyətdə özünü sındırmaması, nikbinliyi özünü göstərir. Gör o, torpaq arzusu ilə yaşayan almana nə deyir: "Vuruş vaxtı başını səngərdən bir balaca çıxart, lap azca, bax belə... Mənim bu çəkməmin dabanı qədər. Bizim snayperlər bircə gülləynən sənin məsələni həll etsinlər. Düz bir metr yetmiş iki santimetr torpaq sənin payın... artıq nəyinə lazımdır!"

Mayor gəlir, Xasayı apartdırır. Bahadırla mayorun söhbəti başlanır. Bu söhbətdə Bahadırın yeni keyfiyyətləri görünür. İndiyə kimi, onu böyük məhəbbətlə sevən, eyni zamanda, hiyləyə inanan bir gənc, bununla belə bir azərbaycanlı əsgər olaraq mətanətini itirməyən mərd mübariz kimi görürdüksə, indi onu, həm də tarixə, fəlsəfəyə bələd, geniş dünyagörüşlü bir ziyalı kimi görürük; vətənini, xalqını sevən bir ziyalı.

Bir dialoqa diqqət edin:

**Mayor.** Siz ağıllı adamsınız, kapitan. Mənim sizə heyfim gəlir. Bu böyük millət arasında gedən amansız mübarizədir. Siz azərbaycanlılar kimi kiçik bir millət bu davada nə qazana bilər? Siz qolunu daha bərk bağlamaq üçün zəncir hazırlayan bir qula bənzəyirsiniz.

**Bahadır.** Millətin böyüklüyü sayında deyil, cənab mayor. Ali irq dediyiniz siz almanların babaları vəhşi dəstələrlə basqın edib Roma mədəniyyətini dağıdanda, kiçik millət dediyiniz azərbaycanlılar sənət sarayları yaradırdı. Azərbaycan torpaqlarından gələn şeir, musiqi səsləri bütün dünaya yayılırdı. Biz qolumuza bağlanmış zəncirləri qırıb qılınc qayırdıq. Bu gün o qılıncları kinimizin alovunda yenidən qızardırıq.

Görün, Bahadır daha nə deyir? Üzünü alman zabitinə tutub deyir: "Hər sındırılan gül budağı, hər parçalanan körpə bədəni üçün bizim qəzəb qılıncımız cavab tələb edəcəkdir, cənab mayor!"

Burada gözlənilməz bir hadisə baş verir. Çox döyülmüş halda Xasayı gətirirlər. Belə çıxır ki, o, casus olmağa və casus kimi, sovetlər tərəfinə ötürülməyə razılıq verir. Bahadır daxili bir əzab keçirir, Xasayın hərəkəti onu qəzəbləndirir. Bahadır "Xasay, mən yuxu görürəm, nədir, bəlkə, sən dəli olmusan?" – deyir; bir daha hiddətlənərək, Xasayı "xain, yaramaz" adlandırır", "Sənin bu qədər alçaq olduğunu mən nə üçün bu vaxta qədər bilməmişəm!" – deyir.

Ancaq məsələ ayrı cür imiş. Xasay bununla Bahadıra kömək etmək məqsədi daşıyırmış. Yer tutsa da, pyesin bu hissəsini eyni ilə təqdim edirik.

**Bahadır**. Heyif Ülkər xalanın südündən sənə!

**Xasay** *(ona yaxınlaşır)*. Bahadır, qardaşım, hazırlaş, get, belə lazımdır.

**Bahadır.** Necə, mən, hara?

**Xasay.** Mənin əvəzimə sən gedəcəksən. Atəş xəttini keçdin, qurtardı. Sən kapitansan, daha lazımsan, səninlə gedən heyvanı da orda təhvil verərsən. Onsuz da bu yaralarla yaşamayacağam. Bunu onlar bilmirlər. Ancaq mən yaxşı bilirəm.

**Bahadır.** Xasay, sən nə danışırsan? Səni burda min əzabla öldürərlər. Yox, mən bunu edə bilmərəm.

Xasay. Ləngimək olmaz, Bahadır, səni gözləyirlər. Serjant Xasayı əvəz edən tapılar, sən daha lazımsan.

**Bahadır.** Yox, mən heç yerə getməyəcəyəm. Mən səni burda qoya bilmərəm, bir yerdə ölərik.

**Zabit *(paltarlarla daxil olur, əlindəki fənərlə otağı işıqlandırır)*.** Al, bu da paltar, tez ol!

***Zabit çıxır.***

**Xasay.** Vaxt keçir. İndicə mənim casus yoldaşım gələcək. Ləngimək olmaz. Hər ikimiz məhv olarıq. Belə bir fürsət əldən çıxar. Düşmən qazanar, bir uduzarıq.

**Bahadır.** Yox, yox, necə ola bilər?

***Çöldən səs gəlir. Bahadır geyinməyə başlayır.***

***

Cəbhə xətti. Xətti azərbaycanlı əsgərlər qoruyur: Əlimərdan, Cəfərqulu söhbət edirlər. Bu zaman bir casusla Bahadır sürünə-sürünə gəlirlər. Bahadır casusu ələ verir. Bahadırın özünə də inanmırlar. Bu anda Firuzə gəlir, Bahadırı tanıyır. Lakin Cəfərqulu buna inansa da, Əlimərdan şübhə ilə yanaşır.

Pyesin yeddinci şəklində hadisələr arxa cəbhədə cərəyan edir, Vəfanın kabinetində. Şəkil Vəfanın sözləri ilə başlanır: "İntizar mənə yazır ki, məktubu kim isə dəyişdirmişdir. Ancaq xətt sənindir. Mən özüm də bir şey anlaya bilmirəm ***(Mirzəyə)***. Deyirəm, bəlkə, sən bir şey bilirsən?" Mirzə adlı Pamoşnik "yox" cavabı vermək əvəzinə "Yoldaş prokuror. Mənim qırx səkkiz yaşım var. Sinnimin bu çağında belə şey yaraşarmı?" - deyə uzun-uzadı cümlə işlədir. Bu, o deməkdir ki, soğan yeməyibsən, için niyə göynəyir. Vəfa onu da fəhm edib deyir: "Mən səni demirəm ki, İntizarın dediyi məktubu deyirəm. O mənim Minnətova yazdığım cavab məktubudur". Guya Pamoşnikin bundan da xəbəri yoxdur və soruşur ki, "Minnətova siz nə məktub yazmışsınız ki?" Sonra söhbət idarənin işinə yönəlir. Vəfa çətin şəraitdə işləyir: bir tərəfdə bu işdə təcrübəsi olmayan gənc prokuror qız – Vəfa, o biri tərəfdə artıq kök salmış dələduzlar, rüşvətxorlar. Bir tərəfdə qanun, insaniyyət, o biri tərəfdə cinayət və cinayətkarlar. Vəfa artıq bu cinayətkarları tanımağa başlayır. Bir qədər əvvəl əsirlikdə yaralı gördüyümüz Xasayın anası Ülkərə üzünü tutaraq deyir: "Bu, bir dəstədir, get-gedə

kələfin ucu açılır. Deyəsən, Minnətov da dəstənin başçılarındandır. Görünür, bizim bu Mirzənin də əli var".

Bir məsələdə Vəfa, necə deyərlər, iki daş arasında qalmışdır. Öz dediyi kimi, "Bir tərəfdə cani, o biri yanda günahsız uşaqlar. İndi mən necə qərar verim?" Burada, dünya görmüş Ülkər xalanın mənalı sözü var: "Xain atanın balası olmaqdansa, yetim qalsalar, daha yaxşıdır".

Səkkizinci şəkil cəbhədə iki qızın – Firuzə və İntizarın lirik-psixoloji müsahibələri ilə başlanır. Uçan durnaların səsi onlara doğma vətən havası gətirir. Doğma ev, uşaqlıq illəri yada düşür. İntizar öz mahnısını oxuyur:

Durnanın qatarı gör nə qəşəngdir!
Səhər buludları nə lalərəngdir!
Mehriban gözlərin yol çəkir yenə,
Bir səs deyir: unut, gəlməyəcəkdir!..

Bu sözlər İntizarın acı taleyindən xəbər verir. Yenə şiddətli vuruşlar başlanır, düşmən böyük qüvvə ilə hücuma keçir. Lakin bizimkilər – azərbaycanlılar, Bahadırın hissəsi qələbə çalır. İntizar isə ağır yaralanır və ölür. Onun da qəlbində Bahadıra, aşkarlanmayan, lakin yalnız kağız üstündə əks olunan sevgi notları var imiş. Bunu bilən Bahadırın dilindən bu sözlər çıxır: "Of... Mənim qəlbim nə qədər möhkəm olsa da, üç yaraya davam gətirəcəkmi? Düşmən gülləsi dost vəfasızlığı, cavabsız bir eşqin intizarı".

Xəstəxana. Bahadır yaralı yatır. Bura vətəndir, Azərbaycandır, doğma şəhərdir. Həkim də vətən övladı İlyasdır. Bundan xəbər tutan Vəfa xəstəxanaya gəlir, həyəcanlıdır. Onu içəri buraxmayan xidmətçiyə kim olduğunu deyir. İlyas gəlir. Bahadır sağalacaqdır, ölüm qorxusu yoxdur. Onu həyəcanlandırmaq olmaz. Bəs nə etməli? Vəfa söz verir ki, sakitcə onun üzünə baxacaqdır. Ancaq hadisə başqa yön alır. Bahadır ayılır, Vəfanın orada olduğunu bilmir və xidmətçi qadına, yazmaq üçün bu sözləri deyir:

"Xala, yazarsan ki, mənim vəfasız Vəfam. Sən məni şikəst görmək istəmədin. Yazarsan ki, bahar olanda pəncələmizi aç, mənim kamanımı götür. Səhər günəş yenicə doğanda, bizim "Səhər" nəğməmizi çal, yazarsan ki, mən öz intiqamımı almışam. Mən yurdumuza vəfalı oldum. Yazarsan ki, İntizar da deyərdi ki, mən ölmək istəmirəm. Hələ düşmən sağdır. O, gümüş ulduzunu soruşurdu. Yazarsan ki, mənim ulduzum sən idi, Vəfa... Xala, ürək dostu, ömür yoldaşı ağır gündə adamı atarmı?".

(Əziz oxucu, bir anlığa bu səhnəni göz qabağına gətir. Bu sözləri Vəfa eşidir. Mən bu əsəri səhnədə görməmişəm. Bilmirəm, tamaşaçı bu səhnəyə tamaşa edəndə dözə bilibmi? Kim inanır, inansın; kim də inanmır, inanmasın. Mən dözüm göstərə bilmədim. Dəfələrlə həyəcanlandım, göz yaşlarımı saxlaya bilmədim). Vəfa da dözmür. "Hıçqırıb özünü Bahadırın üstünə atır.

**Vəfa.** Bahadır, sənin Vəfan burdadır!

**Bahadır.** Vəfa!

**Vəfa.** Bahadır, mənim uzun ayrılıq günlərində sənsiz yaşadığım bir dəqiqəm olmamışdır.

**Bahadır** ***(ona sığınmış Vəfanın üzünü, saçlarını, əllərini oxşayır, tellərini qoxulayır).*** Vəfa! Mənim Vəfam! ***(Hissiz düşür...)***

**İlyas.** Nəbzi vurur. Bu onun üçün ya son dəqiqə, ya qurtuluş olacaqdır.

Pyesin onuncu şəkli müharibədən əvvəlki xoşbəxt günlərin yeni bir formada

qayıdışını göstərir. Hamı öz yerindədir. Vəfa da, Bahadır da, İlyas da, Əli də, Ülkər xala da, Muğan müəllim də. Yalnız Xasayla İntizar yoxdur. Vəsfiyyə də dəyişmişdir. Minnətov isə həmin Minnətovdur. Nə qədər çalışsa da, özünü təmizə çıxara bilmir. Bir daha ifşa olunur. M.Pomoşnik də yoxluğa çəkilir. Düzlər, insanı sevənlər, həyata açıq gözlə baxanlar, təmənnasız yaşayanlar mənən də qalib gəlirlər.

Pyes xoş bir xəbərlə sona yetir: "Qoşunlarımız bütün cəbhə boyu hücuma keçib".

**Bahadır.** Dostlar, belə vaxtda evdə oturmaq olarmı? Mən fəryad edən vətən torpağının çağırışına gedirəm.

**Vəfa.** Bahadır, bərabər gedərik. Mən də səninlə gedəcəyəm. Artıq heç bir zaman ayrılmayacağıq. Biz doğma Azərbaycanın şirin nəğmələrini vətənimizin azad torpaqlarında bərabər oxuyacağıq.

O zamanlardan təxminən 70 il keçir. Əsər də yetmiş il əvvəl meydana gəlmiş və gur səslənən bu sözlər də 70 il əvvəl deyilmişdir. Ancaq Rəsul Rzanın "Vəfa" pyesi bu günümüzün əsəridir. İndi də həmin adamlar var: yaxşı olanlar, vətəninə, xalqına sədaqətlə qulluq edənlər də, arada əl-ayağa dolaşanlar da var. İnsana ürəklə qulluq göstərənlər də var, dönüklər də var. İndi müharibə getməsə də, müharibə şəraitində yaşayırıq. Bu günümüzün də belə səhnə əsərlərinin yaranmasını arzu edərdik.

## ƏDƏBİYYAT


1. Rəsul Rza. Seçilmiş əsərləri. 5 cilddə. IV c., Bakı: Öndər, 2005, 335 s.
2. Rəsul Rza. Duyğuların izi ilə (Məqalələr məcmuəsi). Bakı: Yazıçı, 1990, 456 s.
3. İmamverdi Əbilov. Rəsul Rza. Bakı: Yazıçı, 1960, 46 s.
4. Cəfər Xəndan. Seçilmiş əsərləri. 3 cilddə. I c. Bakı: Çaşıoğlu, 2010, 350 s.


## ПЬЕСА РАСУЛА РЗЫ «ВЯФА»


**Ю.М.СЕИДОВ**


## РЕЗЮМЕ


Статья посвящена 100-летнему юбилею выдающегося азербайджанского поэта Расула Рзы. Пьесу «Вяфа» Расул Рза написал в годы великой отечественной войны. Содержание пьесы отражает один из эпизодов этого времени. В статье анализируется данная пьеса.


## THE PLAY ''VAFA'' BY RASUL RZA


**Y.M.SEYIDOV**


## SUMMARY


The article is dedicated to the 100$^{th}$ anniversary of the outstanding Azerbaijan poet Rasul Rza. The play "Vafa" was written during the great Patriotic war. Its content reflects one of the episodes of that time. This play is analysed in the article.